***Bir ildən artıqdır ki, Azərbaycan xalqı, bütövlükdə, dünya azərbaycanlıları Ermənistan üzərindəki tarixi Qələbəmizin sevincini yaşayır. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz Ermənistanın 30 illik işğalına son qoydu və Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Bu tarixi Qələbənin qazanılmasında xalqımızın monolit birliyi, Prezident–xalq–ordu vəhdəti, eləcə də, gənclərimizin yüksək hərbi vətənpərvərliyi mühüm rol oynadı. Haqq-ədalət uğrunda mübarizəmizin nəticəsi olan bu Qələbə xalqımızı daha da bütövləşdirdi, mübariz etdi, milli həmrəyliyimizi gücləndirdi. Möhtəşəm Qələbə dövlətimizin və xalqımızın iftixar ünvanına çevrildi. Artıq biz qalib xalqın nümayəndələri olmağımızla, torpaqlarımızı hünər meydanında öz gücümüzlə, ordumuzun qüdrəti ilə azad etməyimizlə fəxr edir və qürurlanırıq.***

# Vətən uğrunda son borc

Müharibə başlanan gün gənclərimiz axın-axın Səfərbərlik və Hərbi çağırış üzrə Dövlət Xidməti üzrə rayon şöbələrinə üz tutub könüllü olaraq cəhbəyə getmək istədiklərini bildirdilər. Bu, doğma Vətənə sonsuz məhəbbətdən, işğalçı düşməndən qisas almaq, ərazi bütövlüyümüzü bərpa etmək istəyindən irəli gəlirdi. Belə gənclərimiz saysız-hesabsız idi. Onların əksəriyyəti cəbhəyə yollanaraq, Vətənin müdafiəsində böyük fədakarlıq göstərdi, şəhid oldu, bəziləri isə ömürlük əlil kimi geri qayıtdılar.

Şəhidlik Vətən, torpaq, böyük amallar uğrunda candan keçmək, özünü bu yolda qurban verərək ömür payını gələcək nəsillərin xoşbəxtliyinə bağışlamaqdır. Şəhidlik ən uca və müqəddəs zirvədir. Həm də şərəf, qeyrət, ucalıq zirvəsidir. Bu zirvəni fəth etmək hər insana nəsib olmur. Şəhidlərimizin qəhrəmanlığı bu gün həyata atılan, orduda xidmətə gedən və hərbi qulluğa hazırlaşan gənclər üçün örnəkdir, nümunədir. Vətən yolunda canlarını qurban vermiş, şəhid olmuş oğul və qızlarımızın həyatı, onların qəhrəmanlığı bütün xalqımız üçün, o cümlədən, xüsusən gənclərimiz üçün vətənpərvərlik dərsidir.

Vətən yolunda canını qurban verib şəhidlik zirvəsini fəth edənlərdən biri də Saatlı rayonunda anadan olmuş Şahid Gülməmməd oğlu Əhmədlidir.

Müharibə başlananda Şahid artıq təcrübəli hərbçi idi. O, 2010-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2014-cü ildə isə Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Məktəbində “Zabit ixtisası kursu”nu bitirmişdi.

Ş.Əhmədli motoatıcı taqım və bölük komandiri, mexanikləşdirilmiş hərbi hissə (BMP-3) komandirinin maddi-texniki təminat üzrə müavini vəzifələrində xidmət etmişdi. Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyul 2017-ci il tarixli əmri ilə “baş leytenant” hərbi rütbəsi almışdı.

Ş.Əhmədli cəbhədə daim qaynar nöqtələrdə olub. Valideynləri, həmçinin hərbçi dostları deyirlər ki, Şahid Ermənistan ordusunun ərazilərimizi işğal etməsinə dözə bilmirdi. Səbrsizliklə Prezident, Ali Baş Komandan İlham Əliyevin “İrəli!” əmrini gözləyirdi. 2020-ci il sentyabrın 27-də düşmənin sərhədboyu ərazilərimizdəki genişmiqyaslı təxribatları zamanı “Artıq sonunuz yetişdi. Bu dəfə əlimizdən qurtula bilməyəcəksiniz!” – deyib rəhbərlik etdiyi əsgərlərlə düşmən üzərinə atıldı. Hərbçi dostları deyirlər ki, Şahid təcrübəli zabit idi. O, əsgərlərə deyirdi ki, biz nəyin bahasına olursa-olsun, düşmənə qalib gəlməliyik. Torpaqlarımızın işğalına son qoymalı, ərazi bütövlüyümüzü bərpa etməliyik.



Təəssüf ki, gənc zabit şanlı Qələbəmizi görə bilmədi. O, oktyabrın 11- də Tərtər rayonunun Talış və Suqovuşan kəndləri istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu.

Möhtərəm Prezidentimiz Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumundakı çıxışı zamanı canını Vətən yolunda qurban verən gənclərimizin bu hünərini yüksək qiymətləndirdi: “Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və müzəffər Ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı müharibənin nəticələri necə ola bilərdi”.

Müharibədə əldə edilmiş Qələbəni şərtləndirən bir çox səbəblərindən söhbət açan dövlət başçımız dedi ki, əsas amil vətənpərvərlikdir: “Bunu mən, sadəcə olaraq, xoş söz üçün demirəm. Bunu mən Ali Baş Komandan kimi müharibə dövründə hər an, necə deyərlər, bütün əməliyyatlara rəhbərlik edən şəxs kimi deyirəm və görürəm ki, bəzi hallarda, hətta çətin anlarda bizim hərbçilərimiz mümkün olmayanı da reallığa çevirmişlər. Milli ruh, milli ləyaqət və vətənpərvərlik onları irəliyə aparırdı. Belə xalqla heç kim mübarizə apara bilməz. Bilirsiniz, müharibənin bir çox dərsləri var – həm bizim üçün, həm bütün dünya üçün, region üçün. Onlardan biri də odur ki, azərbaycanlılarla mübarizə aparmaq, müharibə aparmaq çox baha başa gələ bilər”.

Belə mərd oğullarımızdan biri olan Şahid Əhmədlinin ruhu bu gün şaddır. Onun qanı yerdə qalmadı. Amalı, istəyi – torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün təmin olunması reallaşdı. Onun valideynləri, qohumları, yaxınları, doğmaları, uşaqları hər dəfə şəhid məzarını ziyarət edərkən ürəklərindən yalnız bir nida qopur: “Ruhun şad olsun, Vətən sağ olsun. Qanın yerdə qalmadı. Azərbaycan Ordusu dünyada böyük əks-səda yaradan tarixi Qələbə qazandı. Bu Qələbədə sənin də xidmət payın var!”

Şahid sağlığında “Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 95 illiyi”, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi”, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 3-cü dərəcəli ”Vətənə xidmətə görə” ordeni və “Vətən uğrunda” medalı ilə təltif edilib.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***